# İnnovasiyalar təhsilin keyfiyyətinin mühüm meyarı kimi

**Nigar Əliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** niay.83@mail.ru

**Rəyçilər:** p.ü.f.d. S.A. Abdullayeva,
p.ü.f.d., dos. Ş.A. Baxışova

**Açar sözlər:** Azərbaycan, innovasiya, keyfiyyət, inkişaf, təhsil
**Ключевые слова:** Азербайджан, инновация, качество, развитие, образование
**Key words:** Azerbaijan, innovation, quality, development, education

İnnovasiya ingiliscə “innovation” sözündən götürülüb, mənası yenilik deməkdir. İnnovasiya dedikdə, geniş məna etibarilə təlim, təhsil-tərbiyə prosesinin gedişini və nəticələrini yaxşılaşdırmaq məqsədilə pedaqoji sistemdə həyata keçirilən yenilik başa düşülür. İnnovasiya pedaqoji sistemin daxili ehtiyatları hesabına baş verir. İnnovasiya sözünün əvvəlindəki “in” hissəsinin mənası da daxili deməkdir.

İnnovasiya keyfiyyətcə təkmilləşmiş pedaqoji sistemdə vəhdət halında götürülmüş ideyalar, proseslər, vasitələr və nəticələrdir. Pedaqoji sistemin yeniləşməsi üçün bu məsələ çox vacib sayılır. Belə ki, o, səriştəli təhlil, yaradıcı müəllim olmasını tələb edir.

Təhsildə innovasiya cəmiyyətin, elmin, texnikanın inkişaf səviyyəsinə uyğun olaraq həmişə mövcud olub. Belə ki, Rusiyada V.F.Şatalov, Almaniyada Valdorf məktəbi, Gürcüstanda Ş.Amonaşvili, Azərbaycanda Z.Şöyübov və başqaları təlim texnologiyasını təkmilləşdirən, yenilik gətirən novator müəllimlər, məktəb direktorları olmuşlar.

Son illərdə təhsil sistemində bir çox dəyişikliklər baş vermişdir. Yəni yeni paradiqmalar, konsepsiyalar, innovasiyalar, dövlət standartları və alternativ tədris planları, yeni tip məktəblər yaradılıb. Bütün bunlar hamısı təhsil sistemində innovasiya hesab olunur. Sözsüz ki, bu innovasiyalar təhsil sisteminə təsirsiz ötüşmür. Bu innovasiyalar bəziləri tərəfindən qəbul olunsa da, bəziləri tərəfindən heç də yaxşı qarşılanmır. Lakin təhsilin inkişafı baxımından bu məsələlər çox vacibdir. Çünki təhsil bir yerdə dayanan məsələ deyil. O inkişaf edir və təkmilləşir. Bu prosesdə müəllim əsas simadır.

Azərbaycan Respublikasında qəbul edilmiş müxtəlif proqramlarda innovasiyaların inkişafı məsələsi öz əksini tapmışdır. Belə ki, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında bu məsələ qeyd edilir. Yəni sənayenin innovasiyalar əsasında inkişafı elm və texnologiya potensialının gücləndirilməsi yalnız təhsil imkanlarının genişləndirilməsi nəticəsində mümkün olacaqdır. Bu o deməkdir ki, təhsildə innovasiyalardan istifadə prosesi təsərrüfatın bütün sahələrində keyfiyyətin yüksəldilməsini təmin edə bilər.

“Müasir təhsildə gedən qlobal proseslərin səciyyəvi xüsusiyyəti onun fasiləsiz modernləşməsidir. Təhsildə modernləşmənin əsas məqsədi bu gün reallaşan kütləvi təhsil şəraitində yüksək keyfiyyətə nail olmaqdır. İnkişaf etmiş ölkələrin təhsil sistemləri qlobal tendensiyalara uyğun inkişaf edir. Qlobal tendensiyalar isə dünyanın yeni inkişaf səviyyəsi ilə müəyyən edilir. Bu məqsədlə bir çox ölkələrdə müvafiq təhsil strategiyaları və inkişaf proqramları hazırlanmış, hazırda icra edilməkdədirlər.

Bu gün təhsildə strateji yanaşma digər fəaliyyət sahələrinə nisbətən vacibdir. Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamla “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” təsdiq olunmuşdur.

Müasir zamanda innovasiyaların yaranmasına səbəb olan müəyyən tendensiyalar var:

* tədris prosesinin humanistləşməsi;

* uşaqların təhsilləri və gənc nəslin inkişafı keyfiyyətinə verilən yüksək tələblər;

* mədəni-mənəvi dəyərlərə yönəlmə;

* təhsil müəssisələri arasında rəqabətlilik münasibətləri (1).

Müasir dövrdə pedaqogika elmi innovasiyanı, fikrimcə, 2 aspektdə qəbul edir. Birincisi, qabaqcıl və mövcud olmuş pedaqoji təcrübənin nəticəsi kimi. İkincisi isə müasir elmin nailiyyətlərindən irəli gələn yeniliklər kimi. Hər iki məsələnin böyük elmi əhəmiyyəti vardır. Çünki heç biri köhnəlməyən məsələlərdir.

Müəllimin innovativ fəaliyyətindən danışsaq, bu, elə bir fəaliyyətdir ki, özündə müsbət cəhətləri birləşdirir, ehtiva edir. Yəni biz müəllimin innovativ fəaliyyəti ilə bağlı olan məsələləri düşünəndə inkişaf, müsbət addım olan cavabları seçməliyik. Yəni sadə dillə desək, innovativ fəaliyyət müəllimin elə bir fəaliyyətidir ki, inkişafa, tərəqqiyə nail olur. Yenilikçi, yaradıcı mütəmadi olaraq öz üzərində çalışan müəllim pedaqoji innovasiyaya nail olur. Belə ki, yenilikçi müəllim fərqli üsullar yaradır, şagirdlərə şəxsiyyət kimi baxır, yanaşır, bir çox qabiliyyətləri özündə birləşdirir.

Yenilikçi müəllim şübhəsiz ki, müasir müəllimdir. O, kompyüter, informasiya texnologiyalarından istifadə etməyi bacarır. Eyni zamanda daim axtarışlar edir, öyrənməyə meyllidir, hər bir yenilikdən xəbəri olur. Belə müəllim hərtərəfli olaraq formalaşmış müəllim kimi də səciyyələnir.

Təhsildə innovasiya dedikdə, müxtəlif yeniliklərin təlim-tərbiyənin məqsəd, məzmun, metod və formalarına tətbiqi, təhsilin iqtisadiyyatı, təşkili və idarə olunmasında pedaqoq və təhsilalanın fəaliyyətinin yeni biliklər əsasında təşkili nəzərdə tutulur.

Azərbaycan təhsil sistemində də innovasiyalar mühüm yer tutur. Belə ki, Kurikulum, fəal və interaktiv təlim metodları məhz bu yeniliklər sırasındadır. Həmin yeniliklərin təhsil sistemində tətbiqi daha geniş imkanlara yol açmış olur.

Azərbaycanda ulu öndər Heydər Əliyev tərəfindən 1999-cu ilin iyun ayının 15-də qəbul edilmiş Azərbaycan Respublikasında Təhsil Sahəsində İslahat Proqramı məhz bu yeniliklərin başlanğıcı kimi özünü göstərmişdir. Belə ki, İslahat Proqramından irəli gələn kurikulum, fəal və interaktiv təlim metodları, Boloniya prosesi, kredit sistemi, İKT-dən istifadə və s. məhz təhsildə yeniliklər kimi qəbul olunmuşdur.

Adlarını qeyd etdiyim məsələlərin hər biri istər orta məktəblərdə, istərsə də ali məktəblərdə təhsil alan tələbələrin daha yüksək səviyyədə inkişafı, formalaşması üçün çox mühüm məsələlərdir.

Ölkə Prezidenti İlham Əliyevin söylədiyi kimi, təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amildir.

İslahat aparılan ölkədə qarşıda duran ən vacib vəzifə islahatyönlü tədbirlərin həyata keçirildiyi sahədə və xüsusilə bu sahənin nümayəndələrində əvvəllərdən kök salmış köhnə təsəvvürlərin tədricən aradan qaldırılması, eyni zamanda, həmin sahədə mövcud inkişaf səviyyəsinin dəqiq müəyyən edilməsi və buna uyğun surətdə perspektivlərin real şərait baxımından optimal proqnozlaşdırılmasıdır.

Azərbaycan təhsil sistemində də elm və texnikanın inkişafına uyğun olaraq innovasiyalardan həmişə istifadə edilmişdir. Hazırda Kurikulumun sənədlər toplusu olaraq

tələblərinə uyğun tədris planı, tədris proqramları, dərsliklər ibtidai siniflər üçün hazırlanmış, yuxarı siniflər üçün də hazırlanmaqdadır. Bu prosesdə təhsilin məzmunu, təlimin təşkili, qiymətləndirmə və digər pedaqoji məsələlər innovativ olaraq həyata keçirilir.

XXI əsr bütün sahələrdə, o cümlədən təhsil sahəsində innovasiyaların daha çox tətbiqi ilə səciyyələnir. Fəal təlimin məqsədləri olaraq, XXI əsrin təhsili şəxsiyyətə vacib olan bilik, bacarıq, vərdiş və keyfiyyətləri formalaşdırmağa imkan yaratmalıdır. Bilik, bacarıq və vərdişlərdən vacib hesab olunanları gələcəyin insanına tez-tez dəyişən həyat şəraitinə, məlumat və texniki sıçrayış ilə bağlı həyatın tələblərinə və XXI əsrin başqa xüsusiyyətlərinə uyğunlaşmağa imkan yaratmalıdır. Sosial keyfiyyətlər, biliyə yiyələnmək qabiliyyətləri, müasir texniki avadanlıqlardan istifadə etmək bacarıqları, yaradıcılıq keyfiyyətləri və öz qabiliyyətlərini həyata keçirmək bacarıqları burada mühüm yer tutur.

"İnnovasiyaların obyekti aşağıdakı problemlərdir: 1) təlim və tərbiyə fəaliyyətinin motivasiyasını (öyrənməyə, oxumağa olan marağı) necə yüksəltmək; 2) dərsdə öyrənilən materialın həcmini necə artırmaq; 3) təlimin sürətini necə artırmaq; 4) vaxt itkisini necə aradan qaldırmaq və s.

Yeni pedaqoji ədəbiyyatda innovasiya pedaqogikası (bu onun qeyri-rəsmi, şərti adıdır) təhsil-tərbiyənin paradiqmalarını dəyişməyi tələb edir. Paradiqma nəzəri və praktik problemlərin həllinin əsasına qoyulan hakim nəzəriyyədir. İnnovatorlar belə hesab edirlər ki, klassik pedaqoji nəzəriyyə köhnəlmişdir, yeni şəraitdə indiki nəsillərə o nəzəriyyə əsasında təhsil-tərbiyə vermək olmaz. Müasir pedaqogika praktikada o qədər də dəyişdirici təsir göstərə bilmir. Belə olduğu halda o, inzibati-amirlik dövründə formalaşan ideyaları ilə ölkəmizin təhsil sistemini "qidalandırmaqda" davam edir" (2).

Bir faktı da qeyd edim ki, ənənəvi təlim olmasa, heç bir yenilik mövcud ola bilməz. Yəni ki, hər bir yenilik köhnənin üzərində inkişaf edir, formalaşır. Köhnə yeni üçün zəmin rolunu oynayaraq, onun formalaşmasına şərait yaradır.

Beləliklə, innovasiyalar təhsilin keyfiyyətinin meyarı kimi təhsildə mühüm rol oynayaraq, onun daha geniş şəkildə inkişafı üçün yol açmış olur.

**Məqalənin aktuallığı.** İnnovasiya prosesinin təhsilin hansı pilləsində olmasına baxmayaraq, daim vacibliyi və dərs prosesində istifadə olunması ön plana çəkilir ki, bu da məqalənin aktuallığını göstərir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik innovasiyanın təhsilin keyfiyyətinin daha da yüksəldilməsində, eyni zamanda, bütün fənlərin tədrisində tətbiqinin mühümlüyü məsələsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. http://www.anl.az/down/meqale/az_muellimi/2014/yanvar/350556.htm
2.http://azkurs.org/derslik-azerbaycan-respublikas-tehsil-nazirliyinin-14-12-2011.html?page=17

**Н. Алиева**

## Инновации как важная критерия качества образования

## Резюме

В статье рассматриваются сущность инноваций и проблемы современности которые они охватывают. В то же время также дается информация о куррикулуме, об активных и интерактивных методах обучения и т.

**N. Aliyeva**

## Innovations as a crucial criterion for the quality of education

## Summary

The article examines the essence of innovation and the issues covered by modern times. At the same time, curriculum, active and interactive training methods, etc. is also reported.

**Redaksiyaya daxil olub:** 24.04.2019